# YEAR OF URBAN PLANNING AND ARCHITECTURE IN THE LIGHT OF URBAN SOCIOLOGY

**Uzeyir Shafiyev**[1]

**UDC:** 316.334.56:711.4:72(479.24)
**LBC:** 60.546.21:85.118
**HoS:** 153
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.7-18

**Keywords:**

City,
Urban sociology,
Urban socio-ecological environment,
Inclusivity Social accessibility,
Architecture,
Urban planning

**Subject area:**

Social Sciences

**Research field:**

Urban Sociology

## ABSTRACT

In the presented article, the city is explored as a living organism; the experiences of Azerbaijan and other countries are researched through historical-comparative and dual-comparison methods in the context of urban planning. The article emphasizes the necessity of studying urban planning and architectural issues through the lens of sociology and analyzes existing research in the field of urban sociology. Furthermore, it is highlighted that inclusivity, historicity, and modernity must be strictly considered during urban planning to ensure a healthy socio-ecological environment for the city. Consequently, it is concluded that it is essential to approach urban planning and architectural matters in the light of urban sociology.

[1] Doctor of Philosophy in Sociology, Associate Professor,
Head of the Department of Social Work, Baku State University; Baku, Azerbaijan
E-mail: uzeyirshafiyev@gmail.com
https://orcid.org/0000-0001-8075-5005

**To cite this article:** Shafiyev, U. [2026]. Year of Urban Planning and Architecture in the Light of Urban Sociology. *History of Science journal*, *7*(2), pp.7-18.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.7-18

***Article history:***
*Received: 03.11.2025*
*Revised: 05.12.2025*
*Accepted: 01.06.2026*
*Published: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ŞƏHƏRSALMA VƏ MEMARLIQ İLİ ŞƏHƏR SOSİOLOGİYASI İŞIĞINDA

**Üzeyir Şəfiyev**[1]

**UOT:** 316.334.56:711.4:72(479.24)
**KBT:** 60.546.21:85.118
**HoS:** 153
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.7-18

**Açar sözlər:**

Şəhə,
Şəhər sosiologiyası,
Şəhər sosio-eko mühiti,
İnklusivlik,
Sosial əlçatarlıq,
Arxetektura,
Şəhərsalma

**Sahə:**

Sosial Elmlər

**Tədqiqat sahəsi:**

Şəhər sosiologiyası

## ANNOTASİYA

Təqdim olunan məqalədə şəhər bir canlı orqanizm kimi araşdırılır, şəhərsalma ilə bağlı tarixi müqyisəli və qoşa müqayisə metodu vasitəsilə Azərbaycan və dünya ölkələrinin təcrübəsi tədqiqat obyektinə çevrilmişdir. Məqalədə şəhərsalma və arxetektura məsələlərinin sosiologiya elminin verdiyi imkanlarla öyrənilməsi zəruri hesab edilmiş, bununla bağlı şəhər sosiologiyası istiqamətində aparılmış tədqiqatlar təhlil edilmişdir.Burada həmçinin xüsusi vurğulanır ki, şəhərsalma zamanı inklusivlik, tarixilik və müasirlik mütləq nəzərə alınmalı, şəhərin sosio-eko mühiti sağlam olmalıdır.Beləliklə,nəticə olaraq belə qənaətə gəlinmişdir ki, şəhərsalma və arxetektura məsələlərinə şəhər sosiologiyası işığında yanaşmaq zəruridir.

[1] Sosiologiya üzrə fəsəfə doktoru, dosent,
Sosial iş kafedrasının müdiri, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: uzeyirshafiyev@gmail.com
https://orcid.org/0000-0001-8075-5005
**Məqaləyə istinad:** Şəfiyev, Ü. [2026]. Şəhərsalma və Memarlıq İli Şəhər Sosiologiyası İşığında. *History of Science jurnalı*, *7*(2), səh.7-18.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.7-18

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 03.11.2025*
*Yenidən baxılıb: 05.12.2025*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ГОД ГРАДОСТРОИТЕЛЬСТВА И АРХИТЕКТУРЫ В СВЕТЕ СОЦИОЛОГИИ ГОРОДА

**Узеир Шафиев**[1]

**УДК:** 316.334.56:711.4:72(479.24)
**ББК:** 60.546.21:85.118
**HoS:** 153
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.7-18

**Ключевые слова:**

Город,
Городская социология,
Городская социально-экологическая среда,
Инклюзивность
Социальная доступность,
Архитектура
Градостроительство

**Область исследования:**

Социальные науки

**Научная область:**

Социология города

## АННОТАЦИЯ

В представленной статье город исследуется как живой организм; на основе историко-сравнительного метода и метода парного сравнения изучается опыт Азербайджана и стран мира в области градостроительства. В статье обосновывается необходимость изучения вопросов градостроительства и архитектуры с помощью возможностей социологической науки, а также анализируются исследования, проведенные в направлении социологии города. Особо подчеркивается, что при градостроительстве должны обязательно учитываться инклюзивность, историчность и современность, а социально-экологическая среда города должна быть здоровой. Таким образом, делается вывод о необходимости рассмотрения вопросов градостроительства и архитектуры в свете социологии города.

[1] Доктор философии по социологии, доцент,
Заведующий кафедрой социальной работы, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: uzeyirshafiyev@gmail.com
https://orcid.org/0000-0001-8075-5005
**Цитировать статью:** Шафиев, У. [2026]. Год градостроительства и архитектуры в свете социологии города. *Журнал History of Science*, *7*(2), с.7-18.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.7-18

***История статьи:***
*Поступила: 03.11.2025*
*Переработана: 05.12.2025*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Şəhərsalma və arxetektura məsələləri bu gün qlobal bir sosial problem səciyyəsi kəsb edərək dünya evi üçün son dərəcə aktualdır. Təsadüfi deyildir ki, Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyasının mövzusu "Dünyanı mənzillə təmin etmək: Təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar"dır. Şəhər sosiologiyası şəhəri bir icma növü kimi araşdırır, şəhər həyatının xüsusiyyətlərini (istirahət, kütləvi mədəniyyət, ünsiyyət), şəhərin kiçik qruplarını və sosial qurumlarını, sosial-demoqrafik və irqi problemləri araşdırır

*Şəhər məkanları* sosial birliyi və *icma iştirakı* gücləndirmək üçün vacibdir. İctimai yerlərin planlaşdırılması və dizaynı zamanı əlilliyi olan şəxslər nəzərə alınmalıdır. Şəhərsalanlar yerli icmalar, və dizayn mütəxəssisləri arasında əməkdaşlıq uğurlu inklüziv məkanlar yaratmaq üçün çox vacibdir.

Dizaynda inklüzivlik hamı üçün qonaqpərvər olan şəhərlərin yaradılması, sosial qarşılıqlı əlaqənin təşviq edilməsi və təhlükəsizliyin artırılması üçün çox vacibdir. İnklüziv şəhər məkanları müxtəlif icmaların ehtiyaclarına cavab verən ictimai sahələrdir. Ədalətli yerləşdirmə və inklüziv urbanizm məkanları qonaqpərvər və əlçatan olmağı hədəfləyir, bütün mənşəli insanlara təklif etdikləri imkanlardan sərbəst istifadə etməyə və həzz almağa imkan verir. Sakinlərin müxtəlif ehtiyaclarını və üstünlüklərini nəzərə alaraq, dizaynerlər sosial birliyi gücləndirən, kənarlaşmanı azaldan və aidiyyət hissini təşviq edən məkanlar yarada bilərlər. İnklüziv şəhər məkanları təkcə əlçatanlıq deyil, həm də cəmiyyətin bütün üzvləri üçün həqiqi qarşılıqlı əlaqə və aidiyyət hissini inkişaf etdirməkdir.İnklüziv dizayn maneələri aradan qaldırmağa və hər kəs üçün xoş bir mühit yaratmağa yönəlmiş vahid yanaşmadır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il il sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir.Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlığı, milli şəhərsalma forumları və 2026-cı ildə 17-22 may tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyası, ölkənin davamlı urbanizasiya prosesindəki artan rolunu və beynəlxalq əməkdaşlığının uğurunu nümayiş etdirir.

Forum, şəhərsalma ilə bağlı ən aktual məsələləri müzakirə etmək üçün hökumət nümayəndələri, merlər, alimlər, biznesmenlər, icma rəhbərləri və digər maraqlı tərəfləri bir araya gətirən qlobal platformadır.

Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi təsadüfi deyil. Əslində Azərbaycan prezidenti İlham Əliyevin bir neçə çıxışında Bakı və ölkənin region şəhərlərinin yenidən dizayn edilməsi ilə bağlı məsləyə münasibət bildirilmişdir. Mübaliğəsiz deyə bilərik ki, ölkə başçısının bu istiqamətdə çıxışları şəhər sosiologiyası baxımından mühüm məna kəsb edir. Rasional-leqal lider olan prezident İlham Əliyevin şəhərsalma və memarlıqla bağlı çıxışları şəhər sosiologiyası ilə bağlı tədqiqat işlərinin nəticələri ilə tam adekvat səslənir. Dövlət başçısının xüsusilə şəhərsalmada şəhərin konsentrik zonalara bölünməsi ilə bağlı planları, inklusiv, əlçatar,ekoloji təmiz, smart şəhər texnologiyaları ilə bağlı yanaşması bu baxımdan diqqət cəlb edir.

## 2.Azərbaycanda şəhərsalma və qlobal çağrışlar

Hazırda respublikamızda paytaxtdan ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma layihələri həyata keçirilir. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır. Bu model elmi əsaslara malik

olub şəhər sosialogiyası istiqamətində ciddi tədqiqatlar aparan Ernest Burgess tərəfindən hazırlanmış konsentrik zonalar modelinə çox yaxındır. Ernest Burgess modeli şəhərin mərkəzdən kənara doğru beş fərqli, konsentrik zonadan ibarət olduğunu iddia edir. Hər zona fərqli sosial və iqtisadi xüsusiyyətlərə malikdir. Məsələn, mərkəzi biznes rayonu şəhərin ticarət və iş mərkəzi kimi, keçid zonası köhnəlmiş yaşayış binaları və sənaye obyektlərinin yerləşdiyi, sosial problemlərin (kriminallıq, yoxsulluq) cəmləşdiyi ərazi kimi, fəhlə evləri zonası sənaye işçilərinin nisbətən yaxşı şəraitdə yaşadığı ərazi,orta sinif yaşayış zonası daha geniş evlər və yaxşı məhəllələri əhatə edən ərazi və nəhayət, komutator zonası (şəhərətrafı) şəhərin mərkəzində işləyənlərin yaşadığı kənar, imkanlı təbəqənin məskunlaşdığı zona kimi xarakterizə olunur.

Azərbaycan digər sahələrdə olduğu kimi, dünyadakı şəhərsalma çağırışları fonunda da ortaq məqsədlər naminə həmrəylik nümayiş etdirir. Bu baxıdan respublikamızın BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) çərçivəsində əməkdaşlığı da böyük önəm daşıyır. Bu əməkdaşlığın nəticəsində Azərbaycanda ilk dəfə olaraq 2022-ci il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qatıldığı 1-ci Milli Şəhərsalma Forumu təşkil edilib. 2023-cü il sentyabrın 29-da isə BMT-nin Məskunlaşma Proqramının və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi baş tutub. 2025-ci il oktyabrın 15-də isə Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib və sonra tədbir paytaxt Bakıda davam etdirilib. "BMT nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir.

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat), BMT-nin insan məskənləri və davamlı şəhər inkişafı üzrə proqramıdır. Onun əsas məqsədi sosial və ekoloji cəhətdən dayanıqlı şəhərlər, qəsəbələr yaratmaq, urbanizasiya problemlərini həll etmək və üzv ölkələrə bu sahədə dəstək verməkdir. UN-Habitat bütün dünyada daha yaxşı şəhər yaşayışı üçün səyləri koordinasiya edən BMT-nin mərkəzi agentliyidir. Şəhər planlaması, yaşayış və infrastruktur sahəsində siyasətlər hazırlamaq işində ölkələrə texniki dəstək və təcrübə mübadiləsi təşkil etmək,məskunlaşma Forumları keçirərək qlobal dialoqu təşviq etmək onun əsas fəaliyyət sahələrindəndir. Azərbaycan ilk dəfə olaraq 2025-2029-cu illər üçün UN-Habitat İcraiyyə Şurasına üzv seçilib.

## 3.Şəhər sosiologiyası tədqiqatları və dünya təcrübəsi

Məlumdur ki, şəhər sosiologiyası şəhəri bir icma növü kimi araşdırır, şəhər həyatının xüsusiyyətlərini (istirahət, kütləvi mədəniyyət, ünsiyyət), şəhərin kiçik qruplarını və sosial qurumlarını, sosial-demoqrafik və irqi problemləri araşdırır [Советская энциклопедия, 1970].

Şəhər sosiologiyasına töhfə verən görkəmli sosioloqlardan biri Maks Veberdir. Maks Veberin şəhər sosiologiyasına dair baxışları əsasən onun ölümündən sonra, 1921-ci ildə nəşr olunan "Şəhər" (Die Stadt) əsərində cəmlənmişdir. O, şəhəri sadəcə coğrafi və ya demoqrafik bir vahid kimi deyil, kompleks bir sosial struktur və "ideal tip" kimi təhlil etmişdir. Veber şəhəri müəyyən xüsusiyyətlərin məcmusu kimi təsvir edir. Onun fikrincə, "tam bir şəhər" (xüsusilə Qərb tipli şəhər) beş əsas elementə malik olmalıdır: Müdafiə üçün qala (fortifikasiya); İqtisadi mübadilə üçün bazar; Xüsusi (şəhərli) qanunlara malik məhkəmə; Müvafiq assosiasiya forması (vətəndaşlıq birliyi); Ən azı özünüidarəetmə. Veber şəhəri istehlak və istehsal mərkəzi kimi fərqləndirir. O, "istehlakçı şəhərlər" (dövlət məmurlarının və torpaq sahiblərinin yaşadığı) və "istehsalçı şəhərlər" (sənaye və ticarətin

üstünlük təşkil etdiyi) arasında fərq qoyurdu.Veberə görə, həqiqi mənada "şəhər icması" yalnız Orta əsr Avropasında formalaşmışdır. Şərq şəhərlərindən fərqli olaraq, Qərb şəhərlərində insanlar qəbilə və ya kast qohumluğundan qoparaq vahid bir "vətəndaş" statusu ətrafında birləşmişdilər. Veberin məşhur "*Şəhər havası insanı azad edir*" (Stadtluft macht frei) prinsipi onun sosiologiyasında mühüm yer tutur. Şəhər feodal asılılığından qurtulmaq və rasional hüquqi sistemin qurulması üçün bir məkandır. Veberin bu yanaşması müasir şəhər sosiologiyasının, xüsusən də "Çikaqo məktəbi"nin formalaşmasına böyük təsir göstərmişdir.

Veber bütövlükdə şəhəri qonşularının cəmiyyətinə xas olan bir-biri ilə şəxsi tanışlığından məhrum olduğu qədər böyük olan bir-birinə bitişik evlərdən ibarət bir kənd kimi xarakterizə edir [Veber, 1923]. Veberdən əlavə, böyük şəhərlərin cəmiyyətdəki rolunu alman sosioloqları Karl Büxher və Georq Zimmel da öyrənmişlər.

Şəhər sosiologiyasının əsl çiçəklənməsi Çikaqo Məktəbinin alimlərinin (Robert Park, Ernst Bercess və Luis Virt) tədqiqatlarında oldu [Парсонс, 1972]. Çikaqo sosioloqlarının konsepsiyasında şəhər kortəbii inkişaf edən orqanizm kimi şərh olunurdu; şəhər əhalisinin məruz qaldığı biotik proseslərin təsiri altında o, spesifik sosial-iqtisadi quruluş kəsb edirdi. 30-cu illərin sonlarında L. Virt şəhərin sosioloji tədqiqinin yeni metodunu təklif edərək, şəhər həyat tərzi anlayışını önə çəkmişdir. Çikaqo məktəbi urbanizmin sosial problemlərini (cinayətkarlıq, yoxsulluq, segregasiya) tədqiq etmiş, ekoloji yanaşma, simvolik interaksionizm və keyfiyyət (etnoqrafik) metodları tətbiq etmişdir. Robert E. Park və Ernest Berges kimi alimlər şəhərin ayrı-ayrı zonalarını (ekoloji struktur) analiz edərək urbanizmin insan davranışına təsirini öyrənmişdir.

Şəhər sosiologiyası şəhərsalma məsələlərinə bir sıra yanaşma modeli ilə izah verir. Bunlardan biri ekoloji şəhər nəzəriyyəsidir.Bu nəzəriyyə Şəhəri müxtəlif zonalar (mərkəz, keçid zonası, işçi zonası, müstəqil yaşayış zonaları) üzrə tədqiq edir (Berges və McKay). Digər bir model sosial dezorqnizasiya adlanır ki, bu da şəhərləşmənin, sosial dəyişikliklərin sosial normaları zəiflətməsi və nəticədə cinayətkarlığın artmasına səbəb olmasını qeyd edir. Şəhər həyatının fərdlərin bir-biri ilə və mühitlə interaksiyası yolu ilə necə formalaşdırıldığını öyrənən digər yanaşma simvolik interaksionizm adlanır.

Robert Parkın təmsil olunduğu şəhər ekologiyası şəhəri müxtəlif sosial qrupların bir-biri ilə rəqabət apardığı təbii bir ekosistem kimi görürdü. Əsas konsepsiyaları ekoloji bölgüləşmə konsepsiyası idi ki, bu da şəhərin fərqli "zonalar"a (mərkəz, keçid, işçi, residential) ayrılmasını nəzərdə tuturdu. Burada qeyd olunurdu ki, şəhərin sürətli dəyişiklikləri sosial normaların pozulmasına (dezorganizasiya) və fərdlərdə anomiya yaratmasına səbəb olur. Şəhər həyatının fərdin psixologiyasına təsiri, urbanizasiyanın yaratdığı psixoloji stress və yeni şəxsiyyət formaları (məsələn, biganə, kosmopolit insan) təhlil edilirdi. Böyük sosial strukturlardan daha çox, fərdlərin gündəlik qarşılıqlı təsirlərinə, mənalarına və sosiallaşma proseslərinə diqqət yetirirdi. Şəhər həyatını anlamaq üçün şahidlər ifadələri, müsahibələr, şəxsi sənədlər və etnoqrafik müşahidələr kimi keyfiyyət təhlili metodlarından geniş istifadə olunurdu. Çikaqo şəhəri bu tədqiqatlar üçün laboratoriya rolunu oynayırdı. Əhalinin miqrasiyası, məhəllələrin yaranması, cinayətkarlıq, gettolar və sosial problemlər araşdırılırdı.

Çikaqo Məktəbinin insan ekologiyası yanaşması  şəhər mühitindəki qarşılıqlı əlaqələri təbii həyatdakı (biologiyadakı) rəqabət, uyğunlaşma, işğal və ardıcıllıq kimi proseslərə bənzədir. Şəhər fərdlər və qruplar arasında daimi bir rəqabət meydanı olaraq görülür. Şəhər ekologiyasının əsasını qoyanlardan biri Robert E.Park şəhərin sosial-psixoloji həyatını və irqi münasibətləri araşdırırdı. "Şəhər" (The City) adlı kitab (Park, Burgess və McKenzie, 1925) bu məktəbin əsas əsərlərindən biridir. Ümumilikdə, Çikaqo Məktəbi şəhəri tədqiq

etməyə elmi və ekoloji bir yanaşma gətirmiş, fərd-cəmiyyət-mühit qarşılıqlı əlaqələrini modern şəhər kontekstində öyrənmişdir.

Manuel Kastells kimi sosioloqlar urban sosiologiyasının dar çərçivəsini (yalnız böyük şəhərlərə fokuslanmaq) tənqid edərək, bütün məskunlaşma formalarını (qəsəbələr, kəndlər) əhatə edən daha geniş "məskunlaşma sosiologiyası" təklif etmişdir. Şəhərlər böyüdükcə və əhalinin əksəriyyəti şəhər və şəhərətrafı ərazilərdə yaşadıqca, bu sahə sosial siyasətlər, məkan planlaşdırılması və cəmiyyətin inkişafı üçün vacib bir istiqamətə çevrilmişdir.

Şəhər sosiologiyasının öncüllərindən biri Georq Zimmel olub, böyük şəhərlərin insan psixologiyasına və sosial münasibətlərə təsirini, xüsusən də metropolisdəki təəssübkeşlik və pul münasibətlərinin rolunu təsvir etmiş, şəhəri fərdlərin fərdi həyatının zənginləşdirilməsi ilə yanaşı, eyni zamanda yadlaşma və qəriblik mənbəyi kimi də qələmə vermişdir. O, bunu "Metropolis və Mental Həyat" əsərində izah etmişdir. Zimmel'in bu fundamental məqaləsi böyük şəhərin əhalinin düşüncə tərzinə təsirini tədqiq edir. Şəhər həyatı sensor informasiyanın həddindən artıq yüklənməsinə səbəb olur. Bu informasiya yükünə cavab olaraq, şəhər sakinləri özlərini qorumaq üçün hisslərini söndürür, laqeyd və təəssüfkeş olurlar. Bu, onların fərdiyyətini qorumağa kömək edir. Zimmel pulu universal vasitəçi kimi görür. Pulun dominantlığı şəxsi münasibətləri əvəz edərək, hər şeyi mübadilə obyektinə çevirir, bu da şəhər cəmiyyətindəki münasibətlərin soyuqlaşmasına səbəb olur. Şəhər, fərdlərə özlərini ifadə etmək üçün daha çox imkanlar yaratsa da, eyni zamanda onların kollektivin içində itməsinə və yadlaşmasına səbəb olur. Zimmel şəhəri həm fərdiyyətin inkişafı, həm də sosial təcridin mənbəyi kimi ikili bir yer kimi görür; metropolis insanları sosial baxımdan azad etdiyi qədər, onları daha da təcrid edir.

Louis Virth şəhər sosiologiyasının əsas simalarından biri olaraq "Böyük Şəhər və Şəxsiyyət" əsərində şəhəri böyük ölçüsü, sıx məskunlaşması, müxtəlifliyi ilə xarakterizə edir, bu da insanlararası münasibətlərdə instrumental, impersonal xarakterə, ayrı-seçkiliyə, fərdiyyətçiliyə gətirib çıxarır, şəhər həyatını stressli, qəribə hiss etdirir. Virt, Çikaqo Məktəbinin nümayəndəsi idi, onlar şəhəri sosial proseslərin tədqiq edildiyi "sosial laboratoriya" kimi gördülər.Virthə görə, şəhər dedikdə yalnız demoqrafik sıxlıq deyil, eyni zamanda insanların bir-birini şəxsən tanımadığı böyük və müxtəlif bir əhali nəzərdə tutulur. O, şəhərin böyüklüyü, sıxlığı və müxtəlifliyinin insan psixologiyasına və sosial münasibətlərə təsirini araşdırıb. Virt hesab edirdi ki, bu amillər şəhər sakinlərində soyuqluq, təbəqələşmə, superficial münasibətlər yaradır, bu da şəhər həyatını qeyri-insani edir. Virt, şəhəri yalnız bir yer deyil, həm də insanların davranışlarını formalaşdıran bir sosial sistem olaraq təhlil edirdi.

Bu gün şəhərsalma işində əsas meyarlardan biri inklusivlikdir. Ən ümumi əsasa görə inklusiv şəhərlər fiziki imkanlarından, yaşından, gəlir səviyyəsindən, etnik mənsubiyyətindən və ya digər xüsusiyyətlərindən asılı olmayaraq, hər bir sakinin bərabər hüquqlara, xidmətlərə və imkanlara çıxışını təmin edən yaşayış məskənləridir.

Dünya Bankı və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən müəyyən edilən inklusiv şəhərin üç əsas sütunu var:Məkan inklusivliyi: Hər kəs üçün əlçatan mənzil, təmiz su, sanitariya və enerji kimi əsas infrastrukturun təmin edilməsi. Sosial inklusivlik: İrqi, dini və ya fiziki fərqliliyindən asılı olmayaraq hər kəsin şəhər idarəçiliyində iştirakı və sosial qorunması. İqtisadi inklusivlik: Bütün sakinlərin iş imkanlarına çıxışının olması və şəhərin iqtisadi artımından pay alması.

İnklusiv Şəhərin Əsas Xüsusiyyətləri əlçatan infrastruktur yəni əlil arabası istifadəçiləri, görmə məhdudiyyətli şəxslər və yaşlılar üçün maneəsiz səkilər, panduslar və liftlər. Universal dizayn ictimai nəqliyyatın və binaların hər kəs tərəfindən rahat istifadə edilə biləcək şəkildə layihələndirilməsi. Əlçatan mənzil bazarı şəhər mərkəzlərində yalnız

zənginlərin deyil, aşağı gəlirli təbəqənin də yaşaya biləcəyi sosial evlərin olması. Bu baxımdan Bakı şəhəri örnəyində biz sosial evlər nümunəsində bunu qeyd edə bilərik.

Yaşıl zonalar və parklar: Hər bir məhəllədə pulsuz və təhlükəsiz istirahət sahələrinin mövcudluğu. Hazırda inklusiv şəhər konsepsiyası "Ağıllı Şəhər" texnologiyaları ilə birləşir. Məsələn, görmə məhdudiyyətli şəxslər üçün səsli bələdçi tətbiqləri və ya yaşlıların həyatını asanlaşdıran rəqəmsal xidmətlər bu sahədə prioritetdir. Azərbaycanda bu istiqamətdə addımlar atılsa da sistemli, tam əhatəli bir reallığa hələ nail ola bilməmişik. Hərçənd, işğaldan azad edilmiş ərazilərdə (məsələn, Ağdam və Füzuli) salınan "Ağıllı şəhər" və kəndlərdə inklusivlik və əlçatanlıq standartları əsas götürülür.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə keçirilən ilk Azərbaycan Milli Şəhərsalma Forumu tədbirlər çərçivəsində xüsusi əhəmiyyət kəsb etdi.

Məlum olduğu kimi, 2015-ci ildə BMT-yə üzv dövlətlər tərəfindən Dayanıqlı İnkişaf Məqsədləri (DİM) qəbul edilmişdir. Azərbaycan da bu məqsədlərə qoşulmuşdur və "Şəhərlərin inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı olmasını təmin etmək" üzrə 11-ci məqsəd qlobal hədəflərdən biridir.

2016-cı ildə "Mənzil Təminatı və Dayanıqlı Şəhər İnkişafı"na dair keçirilmiş III HABITAT konfransında BMT Baş Assambleyasının qətnaməsi ilə DİM-lər nəzərə alınmaqla "2030-cu ilədək Dayanıqlı Şəhərlər və Yaşayış Məskənlərinə dair Kioto Bəyannaməsi" və "Yeni Şəhər Gündəliyi" ("New Urban Agenda") qəbul edilmişdir. Hər iki sənəd şəhərlərin qurulması, idarə olunması və komfortlu yaşayış üçün şəhər mühitinin yaxşılaşdırılmasını nəzərdə tutan fəaliyyət yönümlü olmaqla bərabər, həm də 11-ci DİM-ə nail olmaq üçün zəruri indikatorları müəyyən edir.

İlk Azərbaycan Milli Şəhərsalma Forumu — Ağdam Forumu hökumətimizin UN-HABITAT ilə birgə təşəbbüsü idi. Ağdam Forumu şəhərsalma sahəsində təcrübə mübadiləsi və dayanıqlı inkişafın təmin edilməsi üçün beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından daha səmərəli bir platforma rolunu oynadı. Ağdam Forumunun başlica mövzusu BMT-nin müəyyən etdiyi əsas alətlər olaraq DİM-in və "Yeni Şəhər Gündəliyi"nin postmünaqişə dövründə bərpa və yenidənqurma layihələrində aparıcı qüvvə roluna həsr olunmuşdu. Forumun ilk günü işğaldan azad olunmuş Ağdam şəhərində, ikinci günü isə ADA Universitetinin dəstəyi ilə Bakıda baş tutdu. Tədbirdə 45 ölkədən yerli və xarici hökumət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, akademik dairələr, mütəxəssislər və digər maraqlı tərəflər iştirak etdi. İlk Azərbaycan Milli Şəhərsalma Forumunun ümumilikdə 400-dən çox iştirakçısından 130-u xarici ölkələri təmsil edirdi.

### 4.Azərbaycanın şəhərsalma və arxetektura sahəsində aparılan işlər və perspektiv yol xəritəsi

Dövrümüzün acı reallığı ondan ibarətdir ki, dünyanın bir sıra ölkələri hərbi münaqişələr nəticəsində yaşayış məntəqələrinin postmünaqişə reabilitasiyası ilə üz-üzədir. Azərbaycan ərazisinin 20 faizi uzun illər işğala məruz qalmış, 900-ə yaxın yaşayış məntəqəsi tamamilə dağıdılmış, 1 milyon hektardan çox torpaq sahəsi kənd təsərrüfatı dövriyyəsindən çıxarılmış, yüzlərlə mədəni irs obyekti məhv edilmişdir.

Təəssüf ki, azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin çox geniş şəkildə aparılmasına böyük maneçilik törədən həmin yerlərin minalardan və partlamamış sursatlardan hələ də təmizlənməməsi məsələsidir. Faktiki olaraq bərpa-quruculuq işlərinin tempi və məcburi köçkün əhalinin repatriasiyası məhz bu faktordan asılıdır.

Ağdam "Qafqazın Xirosiması" adlandırılır. Forum iştirakçılarına, xarici qonaqlara Ağdamın işğalı zamanı burada törədilmiş urbisid, ekosid, kulturasidin acı nəticələrini və dövlətimiz tərəfindən hazırda aparılan genişmiqyaslı quruculuq işlərini canlı göstərmək də çox önəmli idi.

İnnovasiya və texnologiyalar sahəsində beynəlxalq ekspert Alexandro de Leon Moreno yaxın 5–10 il perspektivində Azərbaycan üçün xüsusilə mühüm rol oynayacaq iki əsas tendensiyanı qeyd edir [Məmmədova, 2023]. O, birinci əsas tendensiya kimi rəqəmsal inklüzivliyi göstərib. Vurğulayıb ki, məhz bu prinsip əsasında "Microwd" şirkətinin mikromaliyyələşdirmə və sosial təsir sahəsində fəaliyyət göstərən beynəlxalq fintex platforması qurulub və məhz rəqəmsal inklüzivlik şirkətin böyüməsinə və real sosial təsir yaratmasına imkan verib. Onun fikrincə, texnologiyalar ənənəvi olaraq bu proseslərdən kənarda qalmış əhali qruplarına – kənd sakinlərinə, girovu olmayan və ya maliyyə imkanları məhdud olan insanlara maliyyə və rəqəmsal xidmətlərə çıxış təmin edə bilər. Rəqəmsal alətlər bu cür xidmətləri sürətli, münasib qiymətə və təhlükəsiz edir. Onun fikrincə, dövlətlər erkən yaşlardan rəqəmsal savadlılığı və texnoloji təhsili inteqrasiya etməli, eyni zamanda dəyişikliklərə uyğunlaşması daha çətin olan insanlara – yaşlılara və həssas əhali qruplarına xüsusi diqqət göstərməlidir. Onun sözlərinə görə, heç kimin geridə qalmamasına zəmanət vermək təkcə texniki vəzifə deyil, həm də mənəvi çağırışdır.

Ağıllı şəhərlərin yaradılmasının fəlsəfi və etik aspektləri, xüsusilə Bakıda həyata keçirilən layihələr kontekstində Alexandro de Leon Morenonun təbirincə desək, əsas prinsip insanın texnoloji inkişafın mərkəzinə qoyulmasıdır. Texnologiya məqsəd yox, vasitə olaraq qalmalıdır. Leon Moreno, insan mərkəzli yanaşmanın vacibliyini önə çəkir.İstənilən milli rəqəmsal inkişaf strategiyası əhalinin bütün müxtəlifliyini, o cümlədən kənd regionlarının sakinlərini, internetə çıxışı məhdud olan və rəqəmsal savadlılıq səviyyəsi aşağı olan insanları nəzərə almalıdır. Həllər mahiyyət etibarilə inklüziv olmalıdır, əks halda mövcud sosial və iqtisadi bərabərsizliyin daha da dərinləşməsi riski yaranır.

*Şəhər* getdikcə inklüziv və davamlılıq üçün mərkəz kimi tanınır. Yeni Urban Agenda, bu elementləri planlaşdırma və idarəetmə proseslərinə daxil etməklə, şəhər ərazilərinin sosial birliyi, dayanıqlılığı və canlılığı təşviq etməsi ehtiyacını vurğulayır [5].

İştirakçı planlaşdırma inklüziv şəhər məkanlarının yaradılması üçün vacibdir. İstifadəçi araşdırması və yerli icmalardan, o cümlədən əlilliyi müdafiə edənlərdən rəylər dizaynerlərə müxtəlif istifadəçi qruplarının üzləşdiyi xüsusi problemləri anlamağa kömək edir. Məsələn, Londonun Temza yolunun yenidən qurulması daha geniş, hamar yollara və əlçatan işarələrə səbəb olan icma üzvlərinin rəyini birləşdirdi. İstifadəçi sınağı və rəyi vasitəsilə davamlı təkmilləşdirmələr bütün şəhər sakinlərinin ehtiyaclarını ödəmək üçün ictimai yerləri zərifləşdirmək üçün çox vacibdir.

İnklüziv dizayn yerli kimliyin, *mədəni irsin* qorunmasını nəzərdə tutur. Rəssamlar, dizaynerlər və *ekspertlər şəhərsalma prosesinə cəlb etməlidir*. İnklüziv şəhər məkanları şəhərləri dəyişdirmək gücünə malikdir *Yaşa uyğun mühitlər,* cəmiyyətin müxtəlif ehtiyaclarına cavab verən mühitlər yaratmaqla bu məkanlar sosial birliyi gücləndirir. İnklüziv şəhər məkanları müxtəlif mənşəli insanlar üçün qarşılıqlı əlaqə yaratmaq, icma hissini inkişaf etdirmək üçün platformalar təqdim edir. Valuable 500-ün sorğusu, Amsterdam, London və Sinqapur da daxil olmaqla 10 şəhərin 3,500 əlil insan tərəfindən "ən əlçatan" seçildiyini və müxtəlif giriş ehtiyacları olan şəxslərə cavab verən məkanların dizaynının vacibliyini vurğuladı. Əlçatanlıq fiziki xüsusiyyətlərdən kənara çıxır, həmçinin görmə və ya eşitmə qüsurları olanlara dəstək olmaq üçün audio siqnallar, brayl işarələri və toxunma xəritələri kimi xüsusiyyətlərlə sensor inklüzivliyi də əhatə edir. Bundan əlavə, asanlıqla əldə edilə bilən ictimai xidmətlər, nəqliyyat cədvəlləri və hadisələr haqqında məlumat vasitəsilə məlumatın əlçatanlığının təmin edilməsi inklüziv şəhərin inkişafı üçün açardır.

Şəhərlərdə əlçatanlığın faydaları uşaq arabası olan valideynlər, yaşlı şəxslər və dil maneəsi olan turistlər kimi müxtəlif şəxslərə şamil edilir və bu, inklüziv şəhər məkanlarının daha geniş təsirini göstərir. İnklüziv şəhər məkanları həm də sakinlərin ümumi sağlamlığına

və rifahına töhfə verir. Etibarlı, mənalı münasibətlər insanın ömrünü 50 faiz artıra bilər və Alyaskada Gənclik 360 kimi təşəbbüslər marjinal icmalar üçün nəqliyyat, ictimai yerlər və kommunikasiya kanallarına çıxışı artıraraq, sosial təcridi azaldır və bu problemi həll etmək üçün yerli imkanları təkmilləşdirir. Əlçatan istirahət zonaları təmin etməklə və aktiv həyat tərzini təşviq etməklə, inklüziv şəhərlər hamı üçün daha canlı və yaşana bilən olur.

Şəhər inkişafı ilə mədəni irsin və yerli kimliyin qorunub saxlanması arasında tarazlığın yaradılması çox həssas işdir [Harris, 2023].

Bakıda, İçəri Şəhərdə biz maximum çalışmalıyıq ki, elə bu elan olunmuş il çərçivəsində yabançı elementləri oradan çıxaraq, şirkətlər və firmaların oradan köçürülməsinə nail olmaq, qədim şəhərin əvvəlki memarlıq, dizayn, axertekturasını özünə qaytaraq, eyni zamanda bundan daha əhəmiyyətli içəri şəhərli icmanın orada yaşamaqda davam etməsinə nail olaq, bu şəhərin əvvəlki reallıqlarını elə bərpa etməliyik ki, həmin icmanın şəhərin başqa yerlərinə köçmüş hissəsi belə geridönüşdə maraqlı və həvəsli olsun, beləliklə də İçəri Şəhərdə mövcud olmuş bəlli icma ruhunu sosial varisliyini gələcək nəsllərə ötürülməsinə müvəffəq olaq. İçəri şəhər ancaq bu halda həm daha yüksək əyyarlı turistik qiymət alacaq,həm də ölkəmizin daha dəyərli sərvətinə çevrilə bilər.

Bakının köhnə məhəllələrindən “Papanin”, “Sovetski”, “Xutor” kimi məhəllələri yenidən dizayn edilərkən sosioloji baxımdan bir sıra həssas məsələlərə yanaşma zamanı daha ağılabatan həllər tapmaq məqsədəuyğun olardı. İlk növbədə onu qeyd edək ki, sözügedən məhəllələrdə bəlli sosioeko mühit, uzunmüddətli birgə yaşayış əsasında icma ruhu, adət-ənənələr, arxetiplər formalaşmışdı. Bu da həm şəhərimizin sosial panaramasına özünəməxsus rəng qatır, eyni zamanda həmin məhəllə sakinlərinin icma qaydaları çərçivəsində özünütənzimləmə mexanizmini formalaşdıraraq paytaxtımıza məxsusi sosial xarakterli kalorit bəxş edirdi. Həmin məhəllələrdə küçələr, həyət-baca şəhərimizin digər məkanları ilə müqayisədə çağırışa cavab verməyən səviyyədə olsa da bu məkanda söküntü apardıqdan sonra yeni yaşayış binaları tikib məhz oranın sakinlərinə təqdim etmək olardı. Bununla da onlar hərəsi bir yerə perik düşməz,icma ruhu qorunar, doğma məkanlarından,uşaqlıq nostaljiləri ilə dolu məkanı çarəsiz tərk etməz, köhnə məkanda yeni mənzillərində sağlam bir ömür davam edə bilərdilər. Həmin məhəllə sakinlərinin telemüsahibələrində biz bu çarəsiz gileyləri hər daim eşitməkdə və görməkdəyik.

İnklüziv şəhər dizaynı xüsusi tələbləri olanlar da daxil olmaqla, bütün icma üzvlərinin müxtəlif təcrübələrini və ehtiyaclarını nəzərə almalıdır. Autizm Spektr pozuqluğu (ASD) olan insanlar sosial ünsiyyət və qarşılıqlı əlaqə, təkrarlanan davranışlar, duyğu həssaslığı və ictimai yerlərdə sosial işarələri anlamaqda çətinliklərlə üzləşə bilərlər. Sensor stimulların dəyişdirilmiş qavrayışı və ətraf mühitdən məlumatların emalı ASD-də əsas problemdir və xüsusi səslərə və ya toxumalara mənfi reaksiyalara, həddindən artıq qoxuya və ya obyektlərə toxunmağa, işıqlar və ya hərəkətlərə heyran olmağa səbəb olur [Mohsin, 2024].

Səs uducu materiallar və ya təyin edilmiş sakit ərazilər kimi səs-küyün azaldılması strategiyalarının həyata keçirilməsi autizmli insanlar üçün həddən artıq yüklənməni minimuma endirməyə kömək edə bilər.

Şəhərin səs kirliliyi məsələsi də bu gün paytaxt Bakıda xüsusi aktuallıq kəsb edir. Nasaz avtomobillərin çıxardığı səs və havanı zəhərləyən tüstü, standart ölçüdən kənara çıxan mopet, motosklet və digər nəqliyyat vasitələrinin yaratdığı akustik trvmalar şəhəri dözülməz hala gətirir. Hesab edirik ki, qısa zaman kəsiyində, elə şəhərsalma və arxetektura ili çərçivəsində rasional müdaxilə ilə bu dözülməz vəziyyəti aradan qaldırnaq mümkündür.

Şəhərlər daha inklüziv olmağa çalışdıqca, şəhər dizaynına və icmanın cəlb edilməsinə innovativ yanaşmaları nümayiş etdirən bir neçə ruhlandırıcı nümunə var. Barselonada, *İspaniyada*, şəhər daha əlçatan və ədalətli şəhər mühiti yaradaraq, şəxsi avtomobillərdən

daha çox piyadalar, velosipedçilər və ictimai nəqliyyata üstünlük verən hərtərəfli şəhər hərəkətliliyi planını həyata keçirib [Itair et al., 2023].

Danimarkanın Kopenhagen şəhəri qlobal liderə çevrilib dayanıqlı nəqliyyat velosiped infrastrukturuna və piyadalar üçün əlverişli küçələrə üstünlük verməklə, biznesi cəlb etməklə və yerli iqtisadiyyatı gücləndirməklə şəhər dizaynı. Eynilə, Çikaqodakı Minilliyin Parkı şəhərin mənzərəsini dəyişdirən əhəmiyyətli xeyriyyəçilik töhfələri ilə uğurlu dövlət-özəl tərəfdaşlığın nəticəsi idi. Kolumbiyanın Medellin şəhərində "kitabxana parkları" təşəbbüsü keçmiş narkotik ticarəti nöqtələrini canlı icma məkanlarına çevirərək, təhsil resursları və sakinlər üçün təhlükəsiz toplaşma yerləri təklif edib. Bütün dünyada Danimarkanın Kopenhagen şəhərində yerləşən Superkilen Parkı 50-dən çox ölkədən elementləri özündə birləşdirib, qonşuluğunun mədəni müxtəlifliyini qeyd edir və inklüziv dizaynın gücünü nümayiş etdirir. Keçmiş sənaye sahəsini dəyişdirən Sietldəki Qaz İşləri Parkının uyğunlaşdırılmış şəkildə təkrar istifadəsindən tutmuş, hər il milyonlarla turisti cəlb edən Barselonadakı məşhur Park Güell-ə qədər bu nümunə araşdırmaları inklüziv şəhər məkanlarının yaradılması üçün müxtəlif və innovativ yanaşmaları nümayiş etdirir. Nyu-Yorkdakı High Line və Parisdəki Promenade Plantée, uğurlu inteqrasiyanın daha bir nümunəsidir. Texnologiya şəhər məkanlarında mədəni müxtəlifliyin və inklüzivliyin təşviqində mühüm rol oynayır. *Yerli media* və rəqəmsal platformalar həssas icmaların səslərini gücləndirən və onların hekayələrini və töhfələrini şəhər quruluşunda paylaşmağa imkan verən güclü alətlər kimi ortaya çıxdı. Sosial media sakinləri mədəni layihələr, şəhərsalma və ictimai məkanların canlandırılması ilə bağlı müzakirələrə cəlb edən dinamik interfeys rolunu oynayır.

Xatırladaq Ağıllı Şəhər Həlləri bütün sakinlər üçün əlçatanlığı artırmaq və şəhər xidmətlərini yaxşılaşdırmaq potensialına malikdir [Itair et al., 2023]. İnfrastruktur və xidmətlərin təkmilləşdirilməsi ilə yanaşı, texnologiya həm də şəhərsalma və dizayna daha inklüziv və iştirakçı yanaşmalara imkan verib. Yerli icmaların və təşkilatların cəlb edilməsi planlaşdırmanın müxtəlif ehtiyacları və istəkləri əks etdirməsini təmin edir, icma daxilində aidiyyət və sahiblik hissini gücləndirir. Memarlar və dizaynerlərlə əməkdaşlıq bütün istifadəçilərin ehtiyaclarına cavab verən funksional və estetik baxımdan inklüziv məkanların yaradılmasında zəngin təcrübə gətirir.

Yerli planlaşdırma görüşlərində fəal iştirak etmək fərdlər üçün inklüziv şəhər məkanlarını müdafiə etmək üçün güclü bir yoldur. Bu, təkcə sakinlərə dəyərli rəy bildirməsinə imkan vermir, həm də müxtəlif icmaların səslərinin eşidilməsinə kömək edir. Nəticədə şəhərsalama və arxetektura prosesində ictimai iştirakçılıq təmin olunur,şəhər korporativ sosial məsuliyyət altına alınaraq gələcək nəsillərə yadigar qalır.

**5.Nəticə**

Təqdim olunan məqalədə şəhər bir canlı orqanizm kimi araşdırılır, şəhərsalma ilə bağlı tarixi müqyisəli və qoşa müqayisə metodu vasitəsilə Azərbaycan və dünya ölkələrinin təcrübəsi tədqiqat obyektinə çevrilmişdir. Məqalədə şəhərsalma və arxetektura məsələlərinin sosiologiya elminin verdiyi imkanlarla öyrənilməsi zəruri hesab edilmiş, bununla bağlı şəhər sosiologiyası istiqamətində aparılmış tədqiqatlar təhlil edilmişdir. Burada həmçinin xüsusi vurğulanır ki, şəhərsalma zamanı inklusivlik, tarixilik və müasirlik mütləq nəzərə alınmalı, şəhərin sosio-eko mühiti sağlam olmalıdır. Beləliklə, nəticə olaraq belə qənaətə gəlinmişdir ki, şəhərsalma və arxetektura məsələlərinə şəhər sosiologiyası işığında yanaşmaq zəruridir.

## 6.REFERENCES

**1.** Soviet Encyclopedia. (1970). Leonid Borisovich Kogan. In F. V. Konstantinov (Ed.), *Philosophical encyclopedia* (Vol. 5, p.97). Moscow: Soviet Encyclopedia. (in Russian)

**2.** Weber, M. (1923). *The city* (B. N. Popov, Trans. from German). Petrograd: Nauka i shkola. (in Russian)
**3.** Parsons, T. (1972). *American sociology. Perspectives. Problems. Methods* (V. V. Voronin & E. V. Zinkovsky, Trans. from English, p.68). Moscow: Progress. (in Russian)
**4.** Mammadova, T. (2023, December 23). Baku: AZERTAC. (in Azerbaijani)
**5.** *Handbook for gender-inclusive urban planning and design*. (2020). The World Bank. Retrieved from https://www.worldbank.org/en/topic/urbandevelopment/publication/handbook-for-gender-inclusive-urban-planning-and-design (in English)
**6.** Harris, V. (2023). *Creating inclusive and accessible public spaces*. Retrieved from https://www.marshalls.co.uk/commercial/blog/creating-inclusive-and-accessible-public-spaces (in English)
**7.** Mohsin, A. (2024, October 30). *10 case studies for community-centered public parks*. Retrieved from https://urbandesignlab.in/10-case-studies-for-community-centered-public-parks/?srsltid=AfmBOorWxE_H8aj-NTte3Tc4aH-YTl0WA67MzdzZqOjIP-8txNn9CH2h (in English)
**8.** Itair, M., Shahrour, I., & Hijazi, I. (2023). The use of the smart technology for creating an inclusive urban public space. *Smart Cities*, *6*(5), 2484–2498. https://doi.org/10.3390/smartcities6050112. Basel: MDPI. (in English)

## ƏDƏBİYYAT

**1.** Советская энциклопедия. (1970). Леонид Борисович Коган. В Ф. В. Константинов (Гл. ред.), *Философская энциклопедия* (Т. 5, с.97). Москва: Советская энциклопедия.
**2.** Veber, M. (1923). *Город* (Б. Н. Попова, пер. с нем.). Петроград: Наука и школа.
**3.** Парсонс, Т. (1972). *Американская социология. Перспективы. Проблемы. Методы* (В. В. Воронина & Е. В. Зиньковского, пер. с англ., с.68). Москва: Прогресс.
**4.** Məmmədova, T. (2023, 23 dekabr). Bakı, AZƏRTAC.
**5.** *Handbook for gender-inclusive urban planning and design*. (2020). The World Bank. Retrieved from https://www.worldbank.org/en/topic/urbandevelopment/publication/handbook-for-gender-inclusive-urban-planning-and-design
**6.** Harris, V. (2023). *Creating inclusive and accessible public spaces*. Retrieved from https://www.marshalls.co.uk/commercial/blog/creating-inclusive-and-accessible-public-spaces
**7.** Mohsin, A. (2024, October 30). *10 Case Studies for Community-Centered Public Parks*. Retrieved from https://urbandesignlab.in/10-case-studies-for-community-centered-public-parks/?srsltid=AfmBOorWxE_H8aj-NTte3Tc4aH-YTl0WA67MzdzZqOjIP-8txNn9CH2h
**8.** Itair, M., Shahrour, I., & Hijazi, I. (2023). The use of the smart technology for creating an inclusive urban public space. *Smart Cities*, *6*(5), 2484–2498. https://doi.org/10.3390/smartcities6050112